# BİR EŞQİN İŞIĞINDA



*Vaqif İSAQOĞLU,*
*Prezident təqaüdçüsü*

**Şairi sözündən tanıyarlar. Mən də Elçin İsgəndərzadəni sözündən tanımışam və bu tanışlığın sevinci mənə bütün ömrüm boyu bəs eləyəcək. Elçin İsgəndərzadə adını üç rəngli bayrağımıza yazdıran şairdi. O, həm də dünyanın görkəmli alimləri sırasında yer alan böyük elm adamıdı. Şairliyilə alimliyi birləşərək onu şöhrət zirvəsinə qaldırmış və uzun illərdir ki, o, layiq olduğu şöhrət zirvəsindən hər yana nur ələyir. Bu nurun işığına yığışmaq üçün, ocağının istisinə qızınmaq üçün insanlar onu deyib gəlirlər, o xeyirxah insanın, yaxşı əməllər sahibinin ümid qapısına üz tuturlar. Onun ümid qapısı hamının üzünə açıqdı və nə yaxşı ki, belə bir ümid qapısı var. Yoxsa son ümidimiz tükənərək şam kimi öləziyib sönmək istəyəndə kimin işığına üz tutardıq? Yaxşı ki, Elçin İsgəndərzadə var. Yaxşı ki, onun kimi işıqlı, nurlu ziyalı var, elmilə xalqı faydalandıran alim var, şeirlərilə bizi saflaşdıran, bulaq suyu kimi duruldan, mənən zənginləşdirən, sevib-sevilməyə səsləyən şair var, yurdun hər qara daşını, quru çöpünü belə müqəddəs sayan yurdsevər, haqqsevər bir ziyalı var; bunlardan öncə isə onun kimi vətəndaşlıq, soydaşlıq, yurddaşlıq borcunu ləyaqətlə, şərəflə yerinə yetirən, İsa bulağından su içən, Şuşa dağlarından bir vaxtlar dünyaya boylanan bir qarabağlı var və o, adı böyük hərflərlə yazılan kamil insandı.**

Elçin İsgəndərzadənin ”Eşq” kitabını (Bakı, 2014) oxuyandan sonra, ancaq sözünü tanıdığım, şeirlərini sevə - sevə oxuduğum o işıqlı insan mənə daha doğma oldu, daha yaxın oldu və mənə elə gəldi ki, onu çoxdan tanıyıram, onunla dəfələrlə bir süfrə arxasında əyləşmişəm, bir bulaqdan su içmişəm, bir qatarda yol getmişəm... Bəli, şairin ”Eşq” kitabı onu mənə daha da doğmalaşdırdı və mən Elçin İsgəndərzadəni bir şair kimi yox, bir qardaş kimi gözlərimin önünə gətirdim və ”mən burdayam, qardaş”, - deyə öz-özümə pıçıldadım. İnanıram ki, o, mənim səsimi eşitdi. Axı, o, şairdi. Axı şairlər havada uçuşan səsləri hamıdan yaxşı eşidirlər, hamıdan yaxşı duyurlar... Yaxşı eşitdiklərinə görə də havada uçuşan səsləri şeirə çevirə bilirlər.

Elçin İsgəndərzadə öz sevgisində xoşbəxtdir, çünki onun sevgisi qarşılıqlıdır. Sevginin qarşılıqlı olması böyük səadətdir. Bu səadətdən, bu tale xoşbəxtliyindən Elçin müəllimin də xəbəri var. Ona görə də ”Eşq” poemasını qələmə alıb, daha doğrusu, bu poemanı ona ilahi sevgi yazdırıb. İlahi sevgiylə yazılan, 16 bölümdən ibarət olan bu əsəri sakit və səssiz oxumaq mümkün deyil. Bu poemanı oxuya-oxuya mən də şairlə birlikdə xəyalən bütün dünyanı gəzib-dolaşdım.

”Eşq” poemasını oxuyub həm də bu qənaətə gəldim ki, Leyli-Məcnun sevgisi dünyanın bir yalanıdır. Əsl sevgi Elçin İsgəndərzadə sevgisidir. Onun bu sevgisi olmasaydı dünyada bir boşluq yaranardı. Və nə yaxşı ki, böyük alimlik də, böyük şairlik də, böyük sevgi də onun kimi xeyirxah bir insanın, işıqlı bir ziyalının, qeyrətli bir türk oğlunun qismətinə düşüb. Sual oluna bilər. Niyə? Çünki o, Allahın seçilmiş bəndələrindən biridir və Allah da öz seçilmiş bəndələrini həmişə ucalıqda saxlayır. Allah seçilmiş bəndələrini həmişə ucalıqda saxlayır ki, onları hamı görə bilsin. Mən də Elçin İsgəndərzadəni uzaqdan aydın görür və onun ucaldığı zirvəyə baxa-baxa düşünürəm ki, o istedadlı şairin şeirlərinin işığında ziyarətə getmək olar. Onun kitablarıyla həmsöhbət olmaq, ən müdrik ağsaqqallarla həmsöhbət olmaq deyilmi? Onun kitablarıyla baş-başa qalmaq, ən yaxın sirdaşınla, qardaşınla, könül dostunla baş-başa qalmaq deyilmi?

Misralarından nur tökülən şairin şeirlərini oxumaq təzələnmək, təmizlənmək deməkdir, mənən zənginləşmək, saflaşmaq deməkdir. Elçin İsgəndərzadənin ”Eşq” poeması isə eşqin işığında mənalı, şərəfli bir ömür yaşayan şairin sözün bəşəri müridi olduğunu, özünün isə bəşəri mədəniyyətə malik olduğunu, qəlbinin ilahi eşqlə çağladığını bir daha təsdiqləyir.

İblisin Mələkdən gözəl göründüyü, pulun Şeytana namaz qıldırdığı bu zəmanədə təmiz ürəklə, saf bir məhəbbətlə sevmək, sevgini ilahiləşdirmək, Aydan, Günəşdən və ulduzlardan da yüksələrə qaldırmaq, sevginin fırtına gücünü qələmə almaq, sözlərdən zərif, incə, ruh oxşayan, könül sevindirən bir çələng hörüb və bu çələngi sevənlərə ərmağan eləmək ən böyük savabdı. Sevgidə savab qazanmaq hər adama nəsib olmur. Bu savabı Elçin İsgəndərzadə ”Eşq” poeması ilə bir daha qazandı və ən incə, ən zərif, ən poetik sözlərlə sevgisinə, məhəbbətinə layiq möhtəşəm bir eşq abidəsi ucalda bildi. Əsl sevgidən yoğrulan bu eşq abidəsi dünyanı ağappaq işığa bürüyür və bu ağappaq işıqda şairin içindəki imam evinin minarələrinin sevgidən ucaldığını görürük.

Şairin böyük sevgisi sözlə ifadəsində gözəl duyulur:

**Sevdiyim qadının bircə telinə,**
**fəda eləmişəm bütün dünyanı...**

Fəvvarələrdə çiçəkləyən şeirini sevdiyi qadının əllərilə yazan şairin ah çəkib inlədiyi anlar insanın içini silkələyir:

**...Hər fəsil bizim üçün**
**sevgi mövsümüydü,**
**sevgi mövsümüydü,**
**eşq mövsümüydü,**
**qızılgül kimiydi hər səhərimiz**
**qızılgül ləçəyində**
**şeh damlasıydı sanki**
**qüssəmiz, kədərimiz.**
**Bir eşq budağında**
**qoşa açmış çiçək kimi**
**xoşbəxt idik,**
**xoşbəxt idik biz.**

Aman Allah, şair görəsən nədən keçmiş zamanda danışır? Axı onun sevgisi əbədidir, axı o, öz sevgisiylə dünyanın ən xoşbəxt adamıdı.




”Eşq” poeması yazılmamışdan öncə şairin ürəyi ilahidən nur almışdı və o, eşq poemasını bu nurun işığında yazıb. Hər sözün üstündə yaz qarı kimi əriyən şairin hər misrasında onun ruhu çırpınır.

Ürəyinin qapılarını taybatay açıb insanları öz sevgi dünyasına dəvət eləyən şairin ”Eşq” poeması onun yaradıcılıq qələbəsidi, sevgi qələbəsidi və bu qələbəyə görə ona böyük təşəkkürlər düşür.

...Şeytanın əlləri ürəyimi sıxdığı bu günlərdə bir təsadüf nəticəsində əlimə keçən ”Eşq” kitabı imdadıma çatdı, məni mənə qaytardı, dağılmış, alt-üst olmuş iç dünyamı səhmana saldı və mən böyük ilhamla yazılan bu əsərdən güc aldım və ayaqda qalmağı bacardım. Bax, budur şair qələminin qüdrəti! Bax, budur yaddaşa yük olmayan, ancaq ürəkdən qəm yükünü götürən şair sözünün gücü!

”Eşq” poeması qaranlıq dünyamızda bir damla nurdu, bir parça işıqdı. Həm də nəfəsdi, səsdi, istəkdi, ümiddi, ən təmiz, ən saf duyğular toplusudu, eşq duasıdı və bu eşq duasının təsirindən, bu təmiz duyğular toplusunun gücündən dənizlər coşub-çağlayar, dağlar yerindən oynayar... hətta daşlar da çiçək açar, çünki sevginin gücü, elə Tanrının gücü deməkdir.

Şeh damlaları Xarıbülbülün ləçəklərində nazlandığı, təzəcə şeh düşmüş ləçəklərə hələ bir quş səsi qonmadığı anlarda sevgi şeiri yazmaq, özü də bu sevgi şeirini ömür-gün yoldaşına həsr eləmək istəyilə ”Eşq” poemasını qələmə alan Elçin İsgəndərzadə ”dərvişi-libas” olub bu dünyanı dolaşa-dolaşa öz böyük sevgisini qələmə alıb. Ermitajın bütün rəsm əsərlərində sevdiyinin surətini görən, ”Sonalar gölü”ndə ruhu çırpınan şairin ürəyindən, ancaq bir istək keçir. Şeir yazmaq və o şeiri ömür-gün yoldaşına ünvanlamaq.... Gözəl istəkdi, ürəyin ən xoş arzusudu. İnsanlığın danışdığı bütün dillərdə şeir yazmaq istəyən şairə mələklər pıçıltı ilə deyirlər:

**...Pıçıldadı mələklər bu anda -**
**səndən gözəl şeir yoxmuş cahanda.**

Şairi sevgilisinə şeir yazdırmaq istəyi onu müqəddəs yerlərə aparıb çıxarır. Ərəfat dağında olur. O tutya torpaqlarda onun dodaqlarında sevgi duaları eşidilir:

**Adəmlə Həvvanın görüşdüyü**
**o tutya torpaqlarda,**
**diz çöküb Tanrıma dua elədim.**
**... Ərəfatda bir şeir yazmaq**
**istədim**
**sənin adına-**
**indi xəyallara dalmışam sənsiz**
**Ərəfatda**
**Cənnətlə Cəhənnəm arasında**
**qalmışam sənsiz.**

Dünyanın harasında olursa-olsun, şair, ancaq öz sevgilisini düşünür, sevdiyi qadının həsrətini çəkir. Sevdiyi qadını düşünə-düşünə, onun həsrətini çəkə-çəkə Tanrı dağlarına baxıb yaşmaqlanan səadət mələyinin, sevgi mələyinin səsini eşidir. O, adi səs deyildi. Şairin sevdiyi qadına yazacağı şeirin ilahi sözləri idi və bu sözləri ona sevgi mələyi pıçıldayırdı.

Dünyanın möcüzələri də, ilahi gözəllikləri də şairin könlünü ovuda bilmir, şairin könlünü, ancaq Yunis Əmrənin misraları ovuda bilir. ”Gəl, gör gülüm, gəl, gör gülüm - gəl, gör eşq məni neylədi?! - deyib eşq həsrətilə inləyən şairin yıxılmamaq üçün Yunis Əmrə şeirlərinə ”söykənməsi” təbiidir.

Gəncə çinarlarına ürəyini açan, Şah Abbas məscidində diz çöküb dua oxuyan, sediyi xanımıyla keçən günlərə şükür eyləyən Elçin İsgəndərzadə Parisdə, Romada, İspaniyada, Polşada, Daşkənddə, Moskvada, Gəncədə... bir sözlə, bu yer üzündə heç kimi yox, könül verdiyi qadını arzulayır. Sufi çeşməsindən su içib eşq oduna yanan şair, könül verdiyi qadını arzuladıqca daha da paklaşır və paklaşdıqca daha çox Allaha yaxınlaşır.

Sevgi-məhəbbət şair üçün qiyməti olmayan bir hissdir. Heç nə ona sevgilisini unutdura bilmir. Hər misrasından sevgi və həsrət qoxusu gələn şairin mənəviyyatca necə saf, necə təmiz olduğunu ”Eşq” poemasından da görmək mümkündü, çünki o, öz varlığını misralara elə ilmələyir, hiss və həyacanlarını, duyğularını misralara elə hopdurur ki, heyrətlənməmək mümkün deyil.

”Eşq” poemasının hər bir bölümündə sevdiyi qadına - Afət xanıma şeir yazmaq istəyən şair böyük ustalıqla, böyük sənətkarlıqla muğam üstündə oxuna biləcək bir sevgi simfoniyası yarada bilib...

Elçin İsgəndərzadənin bir şair kimi, vəfalı və sədaqətli ömür-gün yoldaşı kimi yer üzünü dolaşaraq dünyalar qədər sevdiyi xanımına şeir yazmaq istəyinin özü də dünyanın ən gözəl şeiridi, söz mövcud olandan heç bir şairin yaza bilmədiyi şeirdi. Və bu istəyin, bu arzunun, bu sevginin özündə bir Məcnun dahiliyi var. Bəli, o böyük insanda təkcə Lomonosov dahiliyi yoxdu, onda həm də Məcnun dahiliyi, eşq dahiliyi var ki, bu da öz-özlüyündə o böyük şəxsiyyəti el gözündə daha da ucaldır.

Uzaq-uzaq ellərdə, ölkələrdə həsrətin yükünü ürəyində qurşun kimi daşıyan, baxdığı bütün aynalarda öz istəklisini görən şair poemanı nikbin notlarla tamamlayır:

**...Bu sevginin havasına**
**gülüm, qol götür oyna.**
**Bu sevginin havası**
**bir sənə, bir mənə bəlli.**
**Harda olsaq xoşbəxtlikdən**
**yenə bizim alnımızda**
**Tanrının mübarək əli...**

...Yazının girişində ərz elədiyim kimi şairi sözündən tanıyarlar və mən də Elçin İsgəndərzadəni illər öncə sözündən tanımışam, bir yazar olaraq haqqında ürəyimdən gələn səsləri qələmə almaq istəmişəm, amma o böyük alim və şairdən, o işıqlı ziyalıdan Azərbaycanın, eləcə də bir çox ölkələrin ən görkəmli adamları - şair və yazıçıları, elm xadimləri, ədəbiyyatşünasları... söz açdıqlarına görə susmuşam. Şairin ”Eşq” simfonik muğam - poemasını oxuyandan sonra iç dünyam silkələndi, ruhum bədəndən oynadı. Daha susa bilmədim. Yazdım ki, mənən rahatlıq tapım. Yazdım ki, sözüylə tanış olduğum, amma özüylə tanış olmadığım o böyük insanla aramızda bir dostluq körpüsü yarada bilim. İndi mən bu dostluq körpüsündən keçib gözəl şairimiz Elçin İsgəndərzadənin əllərini sıxmaq istəyirəm. Həm də istəyirəm ki, 25 ildən sonra şairin ”Eşq” adlı ikinci poemasının üçüncü səhifəsində bu sözləri bir də oxuyaq: ”Afət xanımla xoşbəxt ömrümüzün 50 illiyinə...”. - İnanıram ki, bu, belə də olacaq. Və 25 ildən sonra şair Elçin İsgəndərzadənin yazacağı ”Eşq” adlı ikinci poeması haqqında da söz demək arzusuyla...